# ‹‹Şulepova Rusiya Federasiyasına qarşı›› iş

## Məhkəmənin qərarı

*Strasburq 11 dekabr 2008-ci il*

"Şulepova Rusiya Federasiyasına qarşı işdə" İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Birinci Bölmə) aşağıdakı Palata tərkibində:

Xristos Rozakis, *Palatanın sədri*
Nina Vaiç,
Anatoli Kovler,
Xanlar Hacıyev,
Sverr Erika Yebens,
Corc Malinverni,
Qeorq Nikolay,

həmçinin Məhkəmənin bölmə katibi Seren Nilsonun iştirakı ilə 20 noyabr 2008-ci il tarixdə qapalı iclasını keçirərək, həmin gün aşağıdakı qərarı qəbul etdi:

### Prosedura

1. İş Rusiya Federasiyasının vətəndaşı Şulepova Valentina Aleksandravnanın (bundan sonra ərizəçi) 26 sentyabr 2003-cü il tarixdə "insan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra Konvensiya) 34-cü maddəsinə müvafiq olaraq Rusiya Federasiyasına qarşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə verdiyi 34449/03 №-li şikayəti əsasında başlanmışdır.

2. Hüquqi yardım göstərilmiş ərizəçinin maraqlarını Kalininqrad şəhərində fəaliyyət göstərən vəkil A.Koss təmsil etmişdir. Rusiya Federasiyası İnsan Hüquqları üzrə Avropa Məhkəməsindəki keçmiş səlahiyyətli nümayəndəsi P.A.Laptev vasitəsi ilə təmsil olunmuşdur.

3. Ərizəçi həmçinin uzun müddət qanunsuz olaraq psixiatriya xəstəxanasında həbsdə saxlanılmasından və onun həbsdə saxlanılmasının qanuniliyinin yoxlanılması üzrə məhkəmə baxışının ədalətli olmamasından şikayət etmişdir.

4. 28 noyabr 2005-ci ildə Birinci Bölmənin sədri şikayəti Rusiya Federasiyası hakimiyyətinə kommunikasiya etmək qərarına gəldi. Həmçinin qərara alındı ki, Konvensiyanın 29-cu maddəsinin 3-cü bəndinə müvafiq olaraq həmin şikayətə həm qəbuledilənlik, həm də mahiyyəti üzrə eyni vaxtda baxılsın.

## İşin halları:

5. Ərizəçi 1934-cü ildə anadan olmuş, Kalininqrad vilayətində yaşayır.

## 1. Ərizəçinin psixatrik xəstəxanada saxlanılması

6. 1999-cu il fevral ayının əvvəllərində ərizəçi öz həkimi K-yə şikayət etmişdi ki, qonşuları onu, güman etdiyinə görə elektromaqnit şüalanmaya məruz qoyur, onu QİÇS infeksiya ilə yoluxdurmaya cəhd etmiş, səs-küy yaradıb evinə su axıtmış və onu çoxlu digər vasitələrlə işgəncəyə məruz qoyublar. O, həmin şəxslərə kislota atacağı ilə hədələyirdi.

7. 19 fevral 1999-cu il tarixdə, ərizəçi tərkibinə iki psixiatr və üç ümumi ixtisaslı həkimin daxil olduğu Baltika şəhər tibb assosiasiyası tərəfindən müayinədən keçirilmişdi. Komissiya belə qərara gəlmişdi ki, ərizəçi şəxsiyyətin paranoid pozuntusundan əziyyət çəkir və qallusinat və aqressivdir. Ona görə də o ətrafdakılar və özü üçün təhlükə yaradır. Həkimlər həmçinin müəyyən etdilər ki, ərizəçi yüksək təzyiqdən əziyyət çəkir.

8. Həmin gün o Kalininqrad vilayətinin 1 saylı psixiatriya xəstəxanasına gətirildi.

9. 12 fevral 1999-cu ildə ərizəçi xəstəxananın psixiatrları tərəfindən müayinə edildi, onlar xəstəyə "inkişaf edən poranoid psixoz" diaqnozu qoydular və hesab etdilər ki, onun məcburi müalicəyə ehtiyacı vardır.

10. Həmin gün xəstəxana ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi barədə qərar verilməsi üçün məhkəməyə müraciət etdi.

11. 16 fevral 1999-cu il tarixdə Kalininqrad şəhər Leninqrad rayon məhkəməsi ərizəçinin işinə baxılanadək onun müvəqqəti olaraq saxlanılması barədə qərar qəbul etdi. Məhkəmə iclası 18 fevral 1999-cu il tarixə təyin edildi.

12. 18 fevral 1999-cu il tarixdə iclas baş tutmadı. Protokolda qeyd olunmuşdu ki, ərizəçi ciddi psixi pozuntu ilə əlaqədar nümayəndə təyin etmək iqtidarında deyildir.

13. 26 mart 1999-cu il tarixdə ərizəçi müalicəyə razılıq verdi. O, 21 aprel 1999-cu il tarixə kimi xəstəxanada qaldı.

14. Xəstəxana öz müraciətini geri götürdüyünə görə 13 may 1999-cu ildə məhkəmə baxışına xitam verildi.

## 2. Həbsdə saxlanmanın məhkəmə tərəfindən yoxlanılması

15. Ərizəçi azad olunandan sonra güman etdiyi xəstəxanaya qanunsuz yerləşdirilməsindən prokurorluğa şikayət verdi.

16. Kaliningrad vilayət prokurorluğunun hüquq mühafizə orqanlarında qanunçuluğa riayət edilməsi üzərində nəzarət sahəsinin rəisinin 1 fevral 2000-ci il tarixli məktubunda ərizəçinin 16 mart 1999-cu ildən 26 mart 1999-cu ilə kimi məhkəmənin sanksiyası olmadan qanunsuz olaraq xəstəxanada saxlanılması etiraf olunur və vəziyyətin düzəldilməsi üçün tədbirlər tövsiyə olunurdu.

17. 11 aprel 2002ci ildə Leninqrad rayon məhkəməsi prokurora məlumat verdi ki, gələcəkdə bu kimi pozuntuların aradan qaldırılması və xəstəxanaların müraciətlərinə baxılması müddətlərinə riayət olunması üçün tədbir görəcəkdir.

18. Bununla belə 21 fevral 2000-ci il tarixdə ərizəçi hakim K-yə və xəstəxanaya qarşı vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia qaldırdı. O, tibbi komissiyanın 10 və 12 fevral 1999-cu il tarixli nəticələrini mübahisələndirir və iddia edirdi ki, o psixi xəstəlikdən əziyyət çəkməmiş və onun məcburi müalicəsinə ehtiyac olmamışdır. O, həmçinin iddia edirdi ki, onun həbsdə saxlanması məhkəmə qərarına əsaslanmadığına görə qanunsuz olmuşdur. O, mənəvi ziyana görə kompensasiya ödənilməsini tələb edirdi. Xəstəxananın nümayəndəsi etiraz etdi ki, həkimlərin nəticələri düzgün olmuş və ərizəçinin məcburi xəstəxanaya yerləşdirilməsi qanuni olmuşdur. O, ərizəçinin iddiasının tamamilə rədd edilməsini xahiş etdi.

19. 22 iyun 2000-ci ildə Kaliningrad vilayəti Leninqrad rayon məhkəməsi müəyyən etdi ki, tibbi komissiyanın nəticələrinin şübhə altına alınması üçün əsaslar mövcud deyil və ərizəçinin həbsdə saxlanılması qanuni olmuşdur.

20. 25 oktyabr 2000-ci ildə Kaliningrad vilayət məhkəməsi qətnaməni ləğv etdi və işi yeni baxışa qaytardı. O, müəyyən etdi ki, birinci instansiya məhkəməsi ərizəçinin tibbi komissiyanın 10 və 12 fevral 1999-cu il tarixli tibbi nəticələrinə münasibətdə iradlarını qiymətləndirməmiş və onun psixi vəziyyəti ilə əlaqədar məcburi qaydada xəstəxanaya yerləşdirilməsinin zəruri olmasını müəyyən etməmişdir.

21. 31 may 2001-ci ildə Leninqrad rayon məhkəməsi müəyyən etdi ki, ərizəçinin 1999-cu ilin fevralında psixi vəziyyətinin müəyyən edilməsi üçün tibbi ekspertiza keçirilməsi zəruridir. O, xəstəxananın tibb mütəxəssislərinə ərizəçinin psixiatrik ekspertizasının keçirilməsini həvalə etdi. Ekspertlərə tibbi komissiyanın

10 və 12 fevral 1999-cu il tarixli tibbi nəticələrinin doğru olub-olmamasını və 1999-cu ilin fevral ayında ərizəçinin psixi vəziyyətinin onun məcburi qaydada xəstəxanaya yerləşdirilməsini tələb edib etmədiyini yoxlamaq təklif olundu.

22. 30 iyul 2002-ci ildə ekspertlər ərizəçinin tibbi kartasına, o cümlədən 10-12 fevral 1999-cu il tarixli rəyə baxdılar və müəyyən etdilər ki, həmin sənədlərdə qeyd olunan nəticələr düzgündür və ərizəçinin 1999-cu ilin fevral ayında məcburi qaydada xəstəxanaya yerləşdirilməsi onun ağır psixi vəziyyətinə görə bəraət qazandırıcı olmuşdur.

23. Ərizəçi ekspert rəyinin nəticələrini mübahisələndirdi. O, iddia edirdi ki, ekspertlər xəstəxananın əməkdaşı olduğuna görə obyektiv olmamış və məhkəmədən xahiş etdi ki, həmin ekspert rəyini qəbul etməsin.

24. 15 yanvar 2003-cü ildə Leninqrad rayon məhkəməsi ərizəçinin iddiasını rədd etdi və xüsusən 10 və 12 fevral 1999-cu il və 30 iyul 2002-ci il tarixli tibbi rəylərə istinad edərək qeyd etdi ki, ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi onun özü və ətrafdakılar üçün təhlükə yaratdığına görə zəruri olmuşdur. Məhkəmə müəyyən etdi ki, 30 iyul 2002-ci il tarixli ekspert rəyi qəbuledilən sübutdur, çünki ekspertlər yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıdıqları ilə əlaqədar xəbərdar edilmişdilər. Bundan başqa 30 iyul 2002-ci il tarixli rəyi hazırlamış komissiyaya 12 fevral 1999-cu il tarixdə ərizəçini muayinə etmiş psixiatrlar daxil edilməmişdir.

25.Ərizəçinin 10 mart 1999-cu il tarixdən 26 mart 1999-cu il tarixə kimi həbsdə saxlanılmasının qanuniliyi ilə əlaqədar məhkəmə aşağıdakıları qeyd etdi:

“ Psixiatrik yardım və onun göstərilməsi zamanı vətəndaşların hüquqlarının təmini ” haqqında Qanunun 33-cü maddəsinin 3-cü bəndinə müvafiq olaraq hakim ərizəçinin işə məhkəmədə baxılması üçün zəruri olan müddətdə ruhi-əsəb xəstəxanasında saxlanılmasına razılıq (sanksiya) vermişdi. (Xəstəxananın ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi barədə ərizəsi)

Xəstəxananın ərizəsinə Qanunun 34-cü maddəsinin 1-ci bəndində nəzərdə tutulduğu kimi beş gün müddətində baxılmadı. Çünki ərizəçi psixi vəziyyəti ilə əlaqədar Qanunun 34-cü maddəsinin 4-cü bəndinə uyğun olaraq məhkəmə iclasında iştirak etmək və ya bunun üçün nümayəndə təyin etmək iqtidarında olmamışdı.

Məhkəmə hesab etdi ki, ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi barədə məhkəmə qərarı ləğv olunmamışdı və ya dəyişdirilməmişdi və xəstəxananın məhkəmə qərarını pozaraq ərizəçini azad etmək səlahiyyəti

olmamışdı. Belə vəziyyətdə xəstəxana 26 mart 1999-cu il tarixinə kimi ərizəçinin məcburi qaydada xəstəxanada saxlanılmasına görə məsuliyyət daşımır.

26. Ərizəçi qərardan şikayət vermişdi. Öz şikayətində o həmçinin qeyd etmişdi ki, 30 iyul 2002-ci il tarixli rəyi hazırlamış ekspertlər qərəzli olmuşlar.

27. 02 aprel 2003-cü il tarixdə Kalininqrad vilayət məhkəməsi qərarı dəyişdirmədən saxladı və hesab etdi ki, qərar qanunu və əsaslıdır. Ekspertlərə münasibətdə isə o qeyd etdi ki, qərar yalnız 30 iyul 2002-ci il tarixli ekspert nəticələrinə əsaslanmamış, həm də digər digər sübutlara söykənmişdir.

## II Milli qanunvericiliyin tətbiqi

28. Rusiyada psixiatrik müalicə " Psixiatrik yardım və onun həyata keçirilməsi zamanı vətəndaşların hüquqlarının təmini " haqqında 2 iyul 1992-ci il Qanunu (gələcəkdə - "Psxiatrik yardım haqqında" Qanun) ilə nizama salınır.

29. Psixi pozuntudan əziyyət çəkən şəxslər onun özünün və ya qanunu nümayəndəsinin razılığı olmadan məhkəmə qərarı qəbul edilənə kimi o halda xəstəxanaya yerləşdirilə bilər ki, onun müalicəsi və ya muayinəsi yalnız stasionar şəraitdə mümkün olsun, psixiatrik pozuntu ağır olsun və aşağıdakılarla şərtlənsin: a) onun özü və ətrafdakılar üçün birbaşa təhlükə yaratması və ya b) onun köməksizliyi, yəni əsas həyatı tələbatları müstəqil təmin etmək iqtidarında olmaması c) şəxs psixiatrik yardımdan kənarda qalarsa, onun psixi vəziyyətinin pisləşməsi nəticəsində sağlamlığına mühüm zərər yetirilməsi (maddə 29)

30. Həmin qanunun 29-cu maddəsində nəzərdə tutulmuş əsaslara görə psixiatrik xəstəxanaya yerləşdirilmiş şəxslər psixiatriya müəssisəsinin həkim-psixiatrlar komissiyası tərəfindən 48 saat müddətində hökmən müayinədən keçirilməlidir. Xəstəxanaya yerləşdirmə əsassız hesab edildikdə və xəstəxanaya yerləşdirilən şəxs orada qalmaq arzusunda olmazsa o dərhal xəstəxanadan buraxılmalıdır. Əgər xəstəxanaya yerləşdirmə zəruri hesab edilərsə, şəxsin yerləşdiyi xəstəxananın nümayəndəsi 24 saat müddətində psixiatrik müəssisənin yerləşdiyi rayonun məhkəməsinə xəstəxanaya yerləşdirmək barədə ərizə ilə müraciət etməlidir.

Qeyd: Xəstəxanaya yerləşdirmə əsaslı hesab edilirsə həkim – psixiatr komissiyasının rəyi 24 saat müddətində şəxsin gələcəkdə xəstəxanada qalması məsələsinin həlli üçün müəssisənin yerləşdiyi rayonun məhkəməsinə göndərilir.

Məcburi qaydada psixiatrik stasionarda yerləşdirilmə üçün qanunda nəzərdə tutulmuş əsasın göstərilməli olduğu ərizəyə həkim psixiatr komissiyasının şəxsin

psixiatrik stasionarda gələcəkdə saxlanılması zəruriliyi barədə əsaslandırılmış rəyi də əlavə olunur. Hakim ərizəni qəbul edərək eyni zamanda şəxsin məhkəmədə ərizəyə baxılması üçün zəruri olan müddətə psixiatriya stasionarında qalmasına sanksiya (razılıq) verir (maddə 32 və 33).

31. Şəxsin məcburi qaydada psixiatriya stasionarına yerləşdirilməsi barədə ərizəyə hakim şəxsi məhkəmə binasında və ya psixiatriya müəssisəsində qəbul etdiyi gündən 5 gün ərzində baxır. Şəxsin onun məcburi qaydada xəstəxanaya yerləşdirilməsi barədə məsələyə dair məhkəmə baxışında şəxsən iştirak etmək hüququ vardır. Əgər psixiatriya müəssisəsi nümayəndəsindən alınmış məlumata əsasən şəxsin psixi vəziyyəti onun məcburi xəstəxanaya yerləşdirilməsi barədə məsələyə məhkəmə binasında baxılmasında iştirak etməyə imkan vermirsə onda məcburi qaydada xəstəxanaya yerləşdirmə barədə ərizəyə psixiatriya müəssisəsində baxılır.

Ərizəyə baxılmasında prokurorun, xəstəxanaya yerləşdirmə barədə müracit etmiş psixiatriya müəssisəsinin nümayəndəsinin və barəsində məcburi qaydada xəstəxanaya yerləşdirmə haqqında məsələnin həll olunduğu şəxsin nümayəndəsinin iştirakı məcburidir (maddə 34) " Psixiatriya yardımı haqqında" Qanun maraqlı şəxs üçün nümayəndənin təyin edilməsinə münasibətdə konkret göstəriş nəzərdə tutmur.

32. Ərizəyə mahiyyəti üzrə baxaraq, hakim onu ya təmin, ya da rədd edir. Məhkəmənin qərarından onun qəbul edildiyi gündən 10 gün müddətində psixiatriya stasionarına yerləşdirilmiş şəxs, onun nümayəndəsi, psixiatriya müəssisəsinin rəhbər, həmçinin qanun və ya nizamnaməsinə əsasən vətəndaşların hüquqlarının müdafiəsini həyata keçirən təşkilat və ya prokuror şikayət verə bilər. Şikayət Mülki Prosessual Məcəllədə nəzərdə tutulmuş qaydada verilir ( maddə 35).

33. Tibb işçilərinin fəaliyyətindən, hərəkətindən məhkəməyə, həmçinin yuxarı orqana və prokurora şikayət vermək olar ( maddə 47 )

34. Məhkəmədə ekspert rəyindən istifadə " Dövlət məhkəmə tibbi ekspertizası haqqında " Qanunla (31 may 2003-cü il) nizama salınır. O, müəyyən edir ki, məhkəmə - tibb eksperti məhkəmədən, tərəflərdən və digər maraqlı şəxslərdən asılı olmamalıdır (maddə 7)

**Hüquq:**

**I Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin güman edilən pozuntusu.**

35. Ərizəçi şikayət etmişdir ki, O, 10 fevraldan 26 mart 1999-cu ilə kimi qanunsuz olaraq psixiatrik xəstəxanada saxlanılmışdır. O, Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin "e" yarımbəndinə istinad etmişdir, hansında ki, deyilir:

‹‹1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs qanunla müəyyən olunmuş hallardan və qaydadan başqa, azadlıqdan məhrum edilə bilməz: ...

e) yoluxucu xəstəliklərin yayılmasının qarçısını almaq üçün şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların və ya səfillərin qanuni həbsə alınmasl:

## A.Şikayətin məqbulluğu.

36. Avropa Məhkəməsi qeyd edir ki. ərizəçinin şikayəti Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndi baxımından açıq-aydın əsassız deyildir. O, həmçinin qeyd edir ki, şikayət hər hansı digər əsasa görə qeyri-məqbul deyildir. Deməli, şikayət qəbul edilən hesab olunmalıdır.

## B. Şikayətin mahiyyəti

### 1. Tərəflərin dəlilləri

37. Ərizəçi iddia etmişdir ki, onun azadlıqdan məhrum edilməsi "qanunda müəyyən edilmiş qaydada" tələbinə müvafiq olaraq sanksiyalaşdırılmamışdı. Xüsusən milli qanunvericiliyin tələb etdiyi kimi xəstəxananın ərizəsinə qanunla müəyyən edilmiş beş gün müddətində baxılmamışdı. Onun müvəqqəti olaraq xəstəxanada saxlanması haqqında məhkəmənin 16 fevral 1999-cu il tarixli qərarı onun və nümayəndəsinin iştirakı olmadan çıxarılmışdı. Ona görə də həmin qərar onun məcburi qaydada xəstəxanada saxlanması üçün qanuni əsas ola bilməzdi.

38. Rusiya Federasiyası hakimiyyəti iddia edirdi ki, ərizəçinin məcburi xəstəxanaya yerləşdirilməsi zəruri idi çünki o, paranoid psixozdan əziyyət çəkirdi. 10 və 12 fevral 1999-cu ildə o psixiatrlar tərəfindən muayinə edilmiş və müəyyən edilmişdi ki, o, qallusinator və aqressivdir. Ərizəçinin qonşulara hədə-qorxu gəlməsi nəzərə alınaraq psixiatrlar belə nəticəyə gəlmişdilər ki, o, ətrafdakılar üçün təhlükə doğurur və onun psixiatrik xəstəxanaya yerləşdirilməsi zəruridir. Onun yüksək təzyiqi də sağlamlıq vəziyyətinin pisləşməsi baxımından xəstəxanaya yerləşdirilməsini tələb edirdi. Onun xəstəxanaya yerləşdirilməsi zəruriliyi sonradan məhkəmə və ekspertlər tərəfindən yoxlanılmış və təsdiq olunmuşdu.

39. Rusiya Federasiyası hakimiyyəti həmçinin iddia edirdi ki, ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi məhkəmə tərəfindən lazımi qaydada sanksiyalaşdırılmışdır. Məhkəmə 16 fevral 1999-cu ildə xəstəxananın müraciətinə baxılana kimi ərizəçinin xəstəxanada saxlanılması məsələsinə baxmış və müraciəti təmin etmişdi. Ərizəçinin məcburi qaydada stasionara yerləşdirilməsi və məhkəmədə iştirakı zəruri olan nümayəndənin təyin olunması barədə ərizəyə, onun məhkəmə iclasında iştirakına mane olan ağır psixi vəziyyətdə olması ilə əlaqədar baxılmamışdır. Rusiya Federasiyası hakimiyyətinin mövqeyinə görə məhkəmənin 16 fevral 1999-cu il tarixli qərarı ərizəçini stasionar müalicəyə razılıq verdiyi 26 mart 1999-cu il tarixə kimi həbsdə saxlanılması üçün əsas olmuşdur.

## 2 Avropa Məhkəməsinin mövqeyi

*(a) Ərizəçinin “ ruhi - xəstə” olması tam əminliklə müəyyən edilmişdirmi*

40. Avropa Məhkəməsi xatırladır ki, “ ruhi – xəstə “ anlayışı dəqiq tərif deyildir, çünki psixiatriya həm tibbi, həm də sosial münasibətdə daim inkişaf edir. Hər hansı şəxsin baxışları və davranışının müəyyən olunmuş normalardan fərqlənməsi ilə əlaqədar həbsdə saxlanılmasını yolverilən hesab etmək olmaz ( bax Avropa Məhkəməsinin “ Vinterverp Niderlanda qarşı “ 24 oktyabr 1979-cu il tarixli qərarı )

41. Ruhi xəstə hesab olunan şəxsin həbsdə saxlanılması konvensiyanın özbaşına azadlıqdan məhrum etməni istisna edən 5-ci maddəsinin 1-ci bəndinin məqsədlərinə və “e” yarımbəndindən nəzərdə tutulmuş məhdudiyyətlərin məqsədlərinə uyğun olmalıdır. Bu münasibətdə Avropa Məhkəməsi xatırladır ki, onun müəyyən olunmuş təcrübəsinə müvafiq olaraq aşağıdakı 3 minimum şərtə nail olunmamışdırsa şəxs “ ruhi xəstə” hesab oluna və azadlıqdan məhrum edilə bilməz: birincisi, qətiyyətlə müəyyən edilməlidir ki, o, ruhi xəstədir; ikincisi, psixi pozuntunun dərəcəsi məcburi xəstəxanaya yerləşdirməni tələb etməlidir; üçüncü, məcburi xəstəxanaya yerləşdirmənin uzadılmasının həqiqiliyi bu cür pozuntunun qalmasından asılı olmalıdır. ( bax “ Conson Birləşmiş Krallığa qarşı iş üzrə Avropa Məhkəməsinin 24 oktyabr 1997-ci il tarixli qərarı )

42. Azadlıqdan məhrum etmənin tibbi ekspertin rəyi nəzərə alınmadan tətbiqi Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin “e” yarımbəndinə uyğun olan hesab edilə bilməz. Təcili hallarda və ya şəxs aqressiv davranışla əlaqədar tutulduqda onun tutulduqdan dərhal sonra həkim tərəfindən müayinəsinə yol verilir. Lakin

bütün qalan hallarda ilkin müayinə məcburidir. Əgər digər imkanlar mövcud deyildirsə məsələn, maraqlı şəxsin müayinəyə gəlməkdən imtina etməsi halında, ən azından tibbi ekspert tərəfindən iş materiallarının qiymətləndirməsi təmin olmalıdır. Əks halda hesab etmək olmaz ki, şəxsin ruhi xəstə olması dəqiqliklə müəyyən edilmişdir. ( bax Varbanov Bolqarıstana qarşı iş üzrə Avropa Məhkəməsinin qərarı)

43. Həmin işin faktlarına müraciət edərək Avropa Məhkəməsi qeyd edir ki, ərizəçinin psixiatrik xəstəxanaya yerləşdirilməsi iki psixiatrın iştirak etdiyi tibbi komissiyada baxılmış və rəyə gəlinmişdir ki, o şəxsiyyətin poranoid pozuntusundan əziyyət çəkir, qalusinasiyaya məruz qalır və həm özü, həm də ətrafdakılar üçün təhlükə yaradır. Xəstəxanaya gətiriləndən sonra o yenidən tibbi mütəxəssislər tərəfindən müayinədən keçirilmiş və diaqnozu təsdiq olunmuşdur. Beləliklə, Avropa Məhkəməsi hesab edir ki, ərizəçinin ruhi xəstə olmasını təsdiq edən obyektiv və həqiqi tibbi məlumatlar mövcud olmuşdur. Bundan başqa onu nəzərə alaraq o, öz qonşuların zorakılıq tətbiq etməklə hədələmişdir və bu hədə-qorxu aqressiv hesab olunub, Avropa Məhkəməsi onun sağlamlıq vəziyyətinin məcburi olaraq xəstəxanaya yerləşdirilməsini tələb etməsini tanıyır. Nəhayət, ərizəçinin onun sağlamlıq vəziyyətinin tələb etdiyindən daha uzun müddətdə məcburi olaraq xəstəxanada qalmasını güman etməyə əsas yoxdur.

44. Yuxarıda qeyd olunanlara əsasən Avropa Məhkəməsi nəticəyə gəlir ki, ərizəçinin " ruhi xəstə " olması Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin "e" yarımbəndi baxımından dəqiqliklə müəyyən edilmiş və onun psixi vəziyyəti nəzərdən keçirilən müddətdə onun məcburi qaydada xəstəxanaya yerləşdirilməsinə bəraət qazandıran xarakter və dərəcədə olmuşdur.

*(b) " Ərizəçi " qanunla müəyyən edilmiş qaydada azadlıqdan məhrum edilmişdirmi*

45. Avropa Məhkəməsi xatırladır ki, " qanunla müəyyən edilmiş qaydada " göstərişi əhəmiyyətli dərəcədə milli qanunvericiliyə istinad edilməsini tələb edir: beləliklə, milli qanunvericilikdə müəyyən edilmiş qaydada riayət edilməsi zəruriliyi qeyd olunur. Lakin milli qanunvericilik özü, onda ifadə olunan və ya güman edilən ümumi prinsiplər də daxil olmaqla Konvensiyaya müvafiq olmalıdır. Bu şərtin əsasında dayanan anlayış ədalətli və layiqli proseduraya da aiddir. Yəni şəxsi azadlıqdan məhrum edən tədbir müvafiq səlahiyyətli orqan

tərəfindən seçilməli, icra olunmalı və özbaşına olmamalıdır. ( bax yuxarıda qeyd olunan “ Vinterverp Niderlanda qarşı” Avropa Məhkəməsinin qərarı )

46. Milli qanunvericiliyi ilk növbədə milli orqanlar, xüsusən məhkəmələr şərh və tətbiq etməlidirlər. Bununla belə Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinə müvafiq olaraq ölkənin qanunvericiliyinə riayət olunmaması Konvensiyanın pozulmasına səbəb olur, onda belə nəticəyə gəlmək olar ki, Avropa Məhkəməsi bu cür riayət olunmanın yoxlanılması ilə bağlı müəyyən səlahiyyətləri həyata keçirə bilər və keçirməlidir (bax; Avropa Məhkəməsinin “ Benem Birləşmiş Krallığa qarşı işi üzrə 10 iyun 1996-cı il tarixli qərarı)

47. Ərizəçi 10 fevraldan 26 mart 1999-cu il tarixə kimi məcburi qaydada psixiatriya xəstəxanasında saxlanılmışdır. 16 fevral 1999-cu ilə kimi onun həbsdə saxlanılması barədə qərar qəbul edilməmişdir. Bu tarixdən sonra isə o, Leninqrad rayon məhkəməsinin qərarına əsasən müvəqqəti olaraq həbsdə saxlanılmışdır. Avropa Məhkəməsi ərizəçinin həmin iki dövr ərzində həbsdə saxlanılmasının qanuniliyini qiymətləndirir.

48. Birinci dörlə bağlı Avropa Məhkəməsi qeyd edir ki, ərizəçi 10 fevral 1999-cu ildə psixiatriya xəstəxanasına yerləşdirilib, bundan sonra tibbi komissiya rəyə gəlmişdir ki, onun stasionar tibbi müalicəyə ehtiyacı var. İki gün sonra xəstəxana məcburi qaydada xəstəxanaya yerləşdirmək barədə sanksiya üçün məhkəməyə müraciət etmişdir. “ Psixiatriya yardımı haqqında “ qanun bu cür ərizəni qəbul etmiş məhkəmənin üzərinə dərhal müvəqqəti olaraq həbsə almaq barədə qərar çıxarmaq öhdəliyini qoyur. Lakin məhkəmə belə bir qərarı yalnız 16 fevral 1999-cu il tarixdə yəni dörd gün sonra qəbul etmişdi. Rusiya Federasiyası hakimiyyəti bu cür gecikmənin izahını təqdim etməmişdir. Buradan məlum olur ki, ərizəçinin həbsdə saxlanılması ən azından 13-dən 16 fevral 1999-cu ilə kimi milli qanunvericiliklə müəyyən edilmiş qaydaya uyğun olmamışdır.

49. İkinci dövrə gəldikdə isə Avropa Məhkəməsi qeyd edir ki, ərizəçinin müvəqqəti həbsdə saxlanılması barədə Leninqrad rayon məhkəməsi 16 fevral 1999-cu ildə qərar çıxarmış və həmin qərarda ərizəçinin xəstəxananın müraciətinə əsasən ərizəyə baxılması üçün zəruri olan müddətə məcburi qaydada xəstəxanaya yerləşdirilməsinə icazə verilmişdir. “ Psixiatrik yardım haqqında” Qanunun 34-cü maddəsinə müvafiq olaraq məhkəmə xəstəxananın məcburi qaydada xəstəxanaya yerləşdirmə barədə ərizəsinə onun alındığı gündən 5 gün müddətinə baxılmalıdır. Həmin işdə xəstəxananın ərizəsinə baxılmamışdı.

50. Avropa Məhkəməsi əvvəllər analoji işdə xəstəxananın məcburi qaydada xəstəxanaya yerləşdirmə barədə ərizəsinə " Psixiatrik yardım haqqında" Qanunda müəyyən edilən beş gün müddətində baxılmamasına görə Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin pozulmasını müəyyən etmişdir. Avropa Məhkəməsi bu pozuntunu ərizəçinin həbsdə saxlanılmasını qanunsuz etməsini tanımışdı ("Rakeviç Rusiya Federasiyasına qarşı" iş üzrə Avropa Məhkəməsinin 28 oktyabr 2003-cü il tarixli qərarı)

51. Avropa Məhkəməsi həmin işdə bu rəyindən geri çəkilmək üçün əsas tapmır. Rusiya Federasiyasının 16 fevral 1999-cu il tarixli müvəqqəti həbsdə saxlama barədə qərarının ərizəçinin 26 mart 1999-cu ilə kimi həbsdə saxlanılması üçün kifayət qədər hüquqi əsas yaratması barədə dəlili məhkəməni qane etmir. 16 fevral 1999-cu il tarixli qərar müvəqqəti xarakter daşımış və prosessual təminatlarla müşahidə olunmamışdır. Xüsusən, həmin qərar ərizəçinin və onun nümayəndəsinin iştirakı olmadan çıxarılmışdı. Onun qüvvəsi beş gün ilə məhdudlaşırdı və məqsədi məhkəmə iclasının hazırlanması və xəstəxananın ərizəsinin diqqətlə hər iki tərəfin iştirakı ilə araşdırılması üçün keçiriləcək məhkəmə iclasına hazırlıq müddətinin müəyyən edilməsi idi. Beləliklə, həmin qərar ərizəçinin qərar çıxarılandan sonra beş gün müddətində həbsdə saxlanılması üçün əsas ola bilərdi. Rusiya Federasiyası hakimiyyəti ərizəçinin həmin qərarda nəzərdə tutulan beş gün müddəti başa çatdıqdan sonra həbsdə saxlanılmasına imkan verən hər hansı hüquqi müddəanı göstərə bilməmişdir. Buradan belə nəticə çıxır ki, ərizəçinin "Psixiatrik yardım haqqında" Qanunun 34-cü maddəsi ilə müəyyən edilmiş beş gündən sonra 26 mart 1999-cu il tarixə kimi həbsdə saxlanılması milli qanunvericiliyə əsasən heç bir hüquqi əsasa malik olmamışdır. Bu nəticə ərizəçinin 16 fevral 1999-cu il tarixdən 26 fevral 1999-cu il tarixə kimi qanunsuz olaraq həbsdə saxlanılması barədə prokurorun 01 fevral 2000-ci il tarixli məktubu ilə də təsdiq olunur.

52. Rusiya Federasiyası hakimiyyətinin ərizəçinin məhkəmənin iclasında iştirak etməsinə və nümayəndənin təyin edilməsinə mane olan ağır psixi vəziyyətinin onun məcburi qaydada xəstəxanaya yerləşdirilməsi barədə ərizəyə baxılmasına imkan verməməsi barədə dəlili ilə əlaqədar Avropa Məhkəməsi qeyd edir ki, "Psixiatriya yardımı haqqında" Qanun şəxsin məhkəmə iclasında iştirak etmək üçün ağır xəstə olması hallarını nəzərə alır. Lakin Qanun ərizəçinin işində olduğu kimi məhkəməyə iclası qeyri-müəyyən müddətə təxirə salmağa icazə vermir lakin nəzərdə tutur ki, nümayəndəni təyin etsin və iclası xəstəxanada keçirsin. Milli

hakimiyyət tərəfindən "Psixiatrik yardım haqqında" Qanunda nəzərdə tutulmuş prosedura pozulmuşdur.

53. Müvafiq olaraq Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndi pozulmuşdur.

**II Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin güman edilən pozuntusu**

54. Ərizəçi şikayət etmişdir ki, onun həbsdə saxlanılmasının qanuniliyinin yoxlanılması barədə məhkəmə baxışı ədalətli olmamışdır çünki məhkəmənin təyin etdiyi ekspertlər qərəzli olmuşlar. O, aşağıdakıları nəzərdə tutan Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə istinad etmişdir:

" 1. Hər kəs onun mülki hüquq və vəzifələri haqqında mübahisəyə baxılarkən ədalətli məhkəmə baxışı hüququna malikdir.

**A. Şikayətin qəbuledilənliyi**

55. Avropa Məhkəməsi qeyd edir ki, Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndi baxımından ərizəçinin şikayəti açıq-aydın əsassız deyildir. O, həmçinin qeyd edir ki, şikayət hər hansı digər əsasa görə qəbul olunmayan deyildir. Ona görə də şikayət qəbul edilən elan edilməlidir.

**B. Şikayətin mahiyyəti**

**1.Tərəflərin dəlilləri**

56. Ərizəçi iddia edirdi ki, onun məcburi qaydada xəstəxanaya yerləşdirilməsi zəruriliyini qiymətləndirmək üçün məhkəmənin təyin etdiyi ekspertlər həmin xəstəxananın həkimləri olmuşlar. Onun fikrinə görə ekspertlərin qərəzliliyi bütün məhkəmə baxışını ədalətsiz etmişdir.

57. Rusiya Federasiyası hakimiyyəti iddia edirdi ki, "Rusiya Federasiyasında" dövlət məhkəmə ekspert fəaliyyəti haqqında Qanun ekspertlərdən müstəqilliyi və qərəzsizliyi tələb edir. Onlar rəylərinə görə şəxsən cavabdehlik daşıyır və tərəflərdən, məhkəmədən göstəriş ala bilməzlər. Rusiya Federasiyası hakimiyyətinin mövqeyinə görə 30 iyul 2002-ci il tarixli ekspert rəyini hazırlamış ekspertlərin ərizəçinin müalicə olunduğu xəstəxananın əməkdaşları olması özü-özlüyündə tərəflərin bərabərliyi prinsipini pozmuşdur. Komissiyanın tərkibinə 12

fevral 1999-cu il tarixdə ərizəçini müayinə etmiş ekspertlər daxil edilməmişdi. Bundan başqa 30 iyul 2002-ci il tarixli ekspert rəyi məhkəməyə təqdim edilmiş yeganə sübut deyildi. Məhkəmə həmçinin digər tibbi sənədləri və tərəflərin dəlillərinidə nəzərə almışdır.

**2.Avropa Məhkəməsinin mövqeyi.**

58. Hətta Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin tətbiqi haqqında məsələ üzrə tərəflərin razılığının olmaması şəraitində də Avropa Məhkəməsi hesab edir ki, məsələnin qiymətləndirilməsini həmin məhkəmə baxışının ərizəçinin mülki hüquq və vəzifələrinə toxunub-toxunmamasından başlamaq lazımdır.

59. Avropa Məhkəməsi əvvəllər bir çox işlərdə müəyyən etmişdir ki, ruhi-xəstə olan şəxsin həbsdə saxlanılmasının qanuniliyinin yoxlanılması onun mülki hüquqlarını müəyyən edir. Belə ki, "Arts Belçikaya qarşı" işdə ərizəçi Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinə əsasən ruhi xəstə kimi həbs edilmişdi. O, həbsdən azad olunandan sonar özünün həbsdə saxlanılmasının qanuniliyinin yoxlanılması barədə məhkəmə baxışı başlatmış və kompensasiya tələb etmişdir. Avropa Məhkəməsi müəyyən etdi ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi onun mülki-hüquqi aspektində məhkəmə baxışına tətbiq edilə bilər, çünki azadlıq hüququ mülki hüquqdur. (bax "Arts Belçikaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 30 iyul 1998-ci il tarixli qərarı)

Avropa Məhkəməsi psixiatrik müəssisədə həbsdə saxlanılmanın qanuniliyi ilə bağlı sonrakı iki işdə də Arts Belçikaya qarşı iş üzrə qərara istinad edərək Konvensiyanın 6-cı maddəsinin onun mülki hüquqi aspektində tətbiq olunmasını məqbul hesab etdi. O, cavabdeh dövlətin şikayətin ratione material Konvensiyanın müddəaları ilə uyğunluq təşkil etməməsi barədə cavabdeh dövlətin etirazını rədd etdi. Baxmayaraq ki, həmin məhkəmə baxışı maddi ziyanın kompensasiya olunması barədə tələb olmadan yalnız həbsdə saxlanılmanın qanuniliyinə toxunurdu. ("Vermerş Fransaya qarşı" Avropa Məhkəməsinin 30 yanvar 2001-ci il tarixli qərarı, Leden Fransaya qarşı Avropa Məhkəməsinin 7 yanvar 2003-cü il tarixli qərarı)

60. Həmin işdə yuxarıda qeyd olunan üç işdə olduğu kimi ərizəçi məhkəmədən xahiş edirdi ki, onun psixiatriya xəstəxanasında saxlanılmasını qanunsuz hesab etsin. Deməli, onun mülki hüquq və azadlığı haqqında məsələyə baxılmışdır.

Bundan başqa o xahiş edirdi ki, qanunsuz həbsdə saxlanıldığına görə kompensasiya ödənilsin. Bununla əlaqədar Avropa Məhkəməsi xatırladır ki, kompensasiyaya olan hüquq özünün təbiəti etibarı ilə hətta o ümumi hüquqdan irəli gəlsə belə, mülki xarakter daşıyır. (bax "Qeorqiadis Yunanıstana qarşı" iş üzrə Avropa Məhkəməsinin 28 may 1997-ci il tarixli qərarı) Həmin işdə qanunsuz həbsdə saxlamaqla bağlı kompensasiya haqqında tələb mülki xarakterli iş kimi tanınmışdır. Beləliklə Avropa Məhkəməsi belə hesab edir ki, araşdırmada ərizəçinin mülki hüquqları müəyyən edilir.

61. Avropa Məhkəməsi həmçinin o məsələni də araşdıracaqdır ki, cavabdeh kimi çıxış edən xəstəxananın həkimlərinin ekspert kimi təyin edilməsi araşdırmanı Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə zidd olaraq ədalətsiz etmişdirmi.

62. Avropa Məhkəməsi xatırladır ki, ekspertlərin təyin edilməsi tərəflərin bərabərliyi prinsipinə riayət edilməsinin qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edir. Ekspertlərin tərəflərdən birinin əməkdaşı olması faktının özü məhkəmə baxışının ədalətsiz olması qənaətinə gəlmək üçün kifayətedici deyildir. Baxmayaraq ki, bu fakt ekspertlərin neytrallığına münasibətdə müəyyən şübhə doğura bilər. Sonuncu müəyyən əhəmiyyətə malik olsa da, həlledici amil deyildir.

Konvensiyanın 6-cı maddəsində ifadəsini tapmış qərəzsizlik və müstəqillik tələbi ekspertlərə aid deyildir. Əsas məsələ bütün məhkəmə prosesi boyu ekspertlərin tutduğu mövqe, onların öz vəzifələrini icra etmə üsulu və məhkəmələrin ekspert rəyini qiymətləndirmə üsuludur. (bax "Zarb Maltaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 27 sentyabr 2005-ci il tarixli qərarı: "Lasmane Latviyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 6 iyun 2002-ci il tarixli qərarı) Ekspertin prosessual vəziyyət və onun məhkəmə baxışında rolu müəyyən edilərkən nəzərə almaq lazımdır ki, məhkəmənin təyin etdiyi ekspertin dedikləri adətən məhkəmənin səlahiyyət sahəsinə aid olan məsələləri qiymətləndirməsi üçün mühüm əhəmiyyət kəsb edir. (bax "Sara Lind Eqqertsdottir İslandiyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 6 may 1985-ci il tarixli qərarı)

63. Ərizəçi ruhi xəstə kimi məcburi qaydada saxlanıldığı xəstəxanaya qarşı iddia qaldırmışdı. O, xəstəxananın psixiatlarının qoyduğu diaqnozu və onun xəstəxanaya yerləşdirilməsi barədə nəticəni mübahisələndirmişdir.

Ölkə məhkəmələri həmin xəstəxanada işləyən psixiatrları onların kolleqalarının gəldiyi nəticələri qiymətləndirmək üçün ekspert kimi cəlb etmişdi. Ərizəçinin iddiasını rədd edərkən məhkəmə əhəmiyyətli dərəcədə onların fikirlərinə istinad etmişdi.

64. Avropa Məhkəməsi analoji vəziyyəti yuxarıda qeyd etdiyi “Sara Lind Eqqertsdottir İslandiyaya qarşı” işdə nəzərdən keçirmişdir. Həmin işdə ərizəçi tibb işçilərinin ehtiyatsızlığı ilə əlaqədar xəstəxanaya qarşı iddia vermişdi. Məhkəmə ekspertiza təyin etdi və xəstəxana əməkdaşlarına öz kolleqalarının hərəkətlərinə qiymət verməyi, ərizəçini müalicə edərkən onların səhlənkarlığa yol verib-verməmələrini müəyyən etməyi tapşırdı. Ərizəçinin tələblərini rədd edərkən məhkəmə ekspertlərin onların kolleqaları tərəfindən səhlənkarlığa yol verilməməsi ilə bağlı nəticəni rəhbər tutdu. Avropa Məhkəməsi tərəflərin bərabərlik hüququnun pozulması ilə bağlı Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusunu aşkar etdi. Məhkəmə 3 amili nəzərə aldı: ekspertlər qarşısında qoyulmuş sualların xarakteri, cavabdeh xəstəxanada ekspertlərin iyerarxik vəziyyəti və ekspertlərin məhkəmə araşdırmasında rolu, yəni məhkəmənin onların rəyinə verdiyi dəyər. Birinci amilə gəlincə, Avropa Məhkəməsi qeyd etdi ki, ekspertlər məhkəməyə onları işə götürənin məsuliyyətini müəyyən etməkdə kömək etməli idilər. İkinci məsələyə gəlincə Avropa Məhkəməsi qeyd etdi ki, ekspertlərin rəisi həmin məsələdə qəti mövqe tutaraq xəstəxananın məsuliyyətini inkar edirdi: Bu ekspertlərin lazımi neytrallıqla çalışacaqları ilə bağlı əsaslı şübhə üçün zəmin yaradırdı. Üçüncü amilə gəlincə Avropa Məhkəməsi qeyd etdi ki, ekspertlərin söylədiyi fikir məhkəmə baxışı üçün həlledici əhəmiyyət kəsb etmişdir. O, belə qərara gəldi ki, cavabdehin əməkdaşlarının işdə mühüm rol oynayan ekspert kimi təyin olunması ilə ərizəçi tərəflərin bərabərliyi prinsipinin ziddinə olaraq cavabdeh xəstəxana ilə müqayisədə qeyri-bərabər vəziyyətdə qalmışdır. (bax “Sara Lind Eqqertsdottir İslandiyaya qarşı” iş üzrə Avropa Məhkəməsinin qərarı)

65. Həmin işdə də analoji vəziyyət alınır. Məhkəmənin təyin etdiyi ekspertlər cavabdeh xəstəxananın həkimləri idi və işə götürənə münasibətdə ümumi tabeçilik və loyallıq öhdəliklərinə malik idilər. Onlara kolleqaları tərəfindən qoyulmuş diaqnozun düzgünlüyünü qiymətləndirmək və ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsinin zəruriliyini yoxlamaq həvalə olunmuşdu. Beləliklə onlara özlərinin, işəgötürənlərinin məsuliyyətini müəyyən etmək üçün məhkəməyə yardım göstərmək məqsədilə öz kolleqalarının vəzifələrini necə icra etməklərini yoxlamaq həvalə edilmişdi. Xəstəxananın nümayəndəsinin xəstəxananın mövqeyini açıq ifadə edərək ərizəçinin işində tibbi nəticələrin doğru olmasını və ərizəçinin tələblərinin əsassız olmasını bildirməsini nəzərə alaraq, ərizəçinin ekspertlərin neytrallığına münasibətdə şübhələrinə obyektiv cəhətdən haqq qazandırmaq olar.

66. Ekspertlərin məhkəmə baxışında rolu ilə bağlı Avropa Məhkəməsi qeyd etmişdir ki, bu işdə əsas məsələ ondan ibarətdir ki, tibbi komissiyanın 10 və 12 fevral 1999-cu il tarixli ərizəçinin məcburi qaydada xəstəxanaya yerləşdirilməsi zərurəti ilə bağlı tibbi nəticələrinin düzgün olub-olmamasıdır. Ərizəçi bu nəticələri mübahisələndirdiyinə görə məhkəmə bunu yoxlamaq üçün ekspertlər təyin etmişdir. Tibbi hazırlıqları olmadığına görə məhkəmələr işin taleyini həll edən məsələdə ekspertin fikirlərinə mühüm əhəmiyyət verməyə məcbur olmuşlar. Mahiyyət etibarı ilə ekspert rəyi 10-12 fevral 1999-cu ildə qoyulmuş diaqnozun düzgünlüyünü təsdiq edən yeganə sübut olmuşdur. Buradan belə nəticə çıxır ki, ekspertlər məhkəmə baxışında həlledici rola malik olmuşlar.

67. Avropa Məhkəməsi onu da nəzərə alır ki, cavabdeh xəstəxana ərizəçinin psixiatrik ekspertizasını keçirmək üçün tələb olunan mütəxəssislərə malik yeganə müəssisə olmamışdır. Məhkəmə psixiatlarının tibbi rəyini Kaliningrad vilayətinin və ya Rusiyanın digər regionlarının digər psixiatriya müəssisələrindən ola bilərdi. Müvafiq olaraq müstəqil ekspertlərin dəvət olunması üçün heç bir maneə mövcud olmamışdır. (bax əks nümunə "Zarb Maltaya qarşı" və "Emmanuella İtalyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 31 avqust 1991-ci il tarixli qərarı)

68. Nəhayət ərizəçi öz seçiminə görə ekspert cəlb etmək hüququndan məhrum edilmədiyinə görə, sonuncuların prosessual vəziyyəti məhkəmənin təyin etdiyi ekspertlərin vəziyyətinə bərabər ola bilməzdi. Özünün statusunun təbiətinə görə məhkəmənin qərəzsiz və neytral köməkçilər alması güman edilən məhkəmənin təyin etdiyi ekspertlərin rəyi tərəfin dəvət etdiyi ekspertlərin rəyindən məhkəməni qiymətləndirməsi üçün böyük əhəmiyyətə malik olmalı idi. (bax "Sara Lind Eqqertsdottir İslandiyaya qarşı" iş üzrə, "Beniş Avstryaya qarşı" iş üzrə Avropa Məhkəməsinin qərarı)

69. Avropa Məhkəməsi yuxarıda göstərilənlərə əsasən qərara gəlir ki, cavabdehin əməkdaşlarını ekspert kimi təyin etməklə ölkə məhkəmələri ərizəçini cavabdeh xəstəxanaya münasibətdə əhəmiyyətli dərəcədə qeyri-bərabər vəziyyətdə qoymuşdur. Beləliklə tərəflərin bərabərliyi prinsipinə əməl olunmamışdır.

70. Müvafiq olaraq Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusu baş vermişdir.

## III. Konvensiyanın gümanedilən digər pozuntuları

71. Nəhayət ərizəçi ondan şikayətlənirdi ki, məhkəmə baxışı həddən artıq uzun müddətə davam etmişdir.

72. Diqqətə alınması zəruri olan müddət həmin işdə 21 fevral 2000-ci ildən ərizəçi iddiasını təqdim etdiyi vaxtdan başlanmışdır. Məhkəmə baxışı 3 il bir aydan bir qədər artıq müddətdə davam etmişdir. Bu müddət ərzində ərizəçinin işinə iki dəfə ikinci instansiyada baxılmışdır. Məhkəmə baxışının müddəti həddən uzun davam etmə təsiri bağışlamır. Buradan belə nəticə çıxır ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3 və 4-cü bəndlərinə müvafiq olaraq açıq-aydın əsassız olduğuna görə rədd edilməlidir.

## IV. Konvensiyanın 41-ci maddəsinin tətbiqi

73. Konvensiyanın 41-ci maddəsi nəzərdə tutur ki:

‹‹Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir››

### A. Zərər

74. Ərizəçi mənəvi zərərin kompensasiyası kimi 6000 Avro tələb etmişdir.

75. Rusiya Federasiyası hakimiyyəti güman etdi ki, tələb həddən artıqdır və müəyyən edilmiş pozuntu özü-özlüyündə ədalətli kompensasiya üçün kifayətdir.

76. Avropa Məhkəməsi hesab edir ki, ərizəçinin psixiatrik xəstəxanada qanunsuz saxlanılması və ədalətsiz məhkəmə baxışı ilə əlaqədar əzab və məyusluğa məruz qaldığı mənəvi zərər Konvensiyanın pozuntusunun müəyyən edilməsi ilə kompensasiyaya edilə bilməz. Buna baxmayaraq Avropa Məhkəməsi hesab edir ki, ərizəçinin tələb etdiyi məbləğ həddən artıqdır. Qeyd olunan vəziyyəti ədalətlilik əsasında nəzərə alaraq o, ərizəçiyə həmin əsasla 4000 avro, həmçinin həmin məbləğin üzərinə gələ bilən hər hansı məbləğin ödənilməsini qərara alır.

### B. Məhkəmə xərcləri və məsrəfləri

77. Ərizəçi ölkə məhkəmələri və Avropa Məhkəməsində çəkdiyi məhkəmə xərci və məsrəflərinin ödənilməsini tələb etməmişdir. Müvafiq olaraq Avropa Məhkəməsi ona həmin əsasla hər hansı məbləğ ödəmir.

## C. Ödəmə gecikdirildiyi halda əlavə olunan faizlər.

78. Avropa Məhkəməsi cərimə faizinin Mərkəzi Avropa Bankındakı satış kursu əsasında hesablanması və onun üzərinə müvafiq 3 faiz dərəcəsini əlavə edilməli olduğunu müəyyən edir

Qeyd olunanlara əsasən Məhkəmə yekdilliklə:

1) Ərizəçinin qanunsuz olaraq həbsdə saxlanılması və məhkəmə baxışının ədalətli olmamasını güman etdiyi hissələrdə şikayət qəbul edilən, qalan hissələrdə qəbul olunmayan hesab edir;

2) *qərara alır,* Konvensiyasın 5-ci maddəsinin 1-ci bəndinin pozuntusu baş vermişdir.

3) *qərara alır,* Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozuntusu baş vermişdir.

*4) qərara alır:*

(a) cavabdeh dövlət Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə müvafiq olaraq, bu qərarın qüvvəyə mindiyi tarixdən sonra 3 ay ərzində ərizəçiyə mənəvi ziyana görə 4000 avro ödəniş tarixinə tətbiq edilən məzənnə üzrə milli valyutaya çevrilməli və bu məbləğin üzərinə onlardan tutula biləcək hər hansı vergi məbləği əlavə olunmalıdır;

(b) yuxarıda qeyd olunan müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər yuxarıda qeyd olunan ödənilməli məbləğlərin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə bərabər olan adi faiz məbləği əlavə olunmalı və onunda üzərinə daha 3 faiz əlavə olunmalıdır;

5) Əvəzin ədalətli ödənilməsi ilə bağlı ərizəçinin qalan tələblərini rədd edir.

Qərar ingilis dilində tərtib edilib və Məhkəmə Reqlamentinin 77-ci Qaydasının 2-ci və 3-cü bəndlərinə uyğun olaraq 11 dekabr 2008-ci ildə qərar barədə yazılı məlumatlar verilib.

| | |
|---|---|
| **Seren Nilson** | **Xristos Rozakis** |
| **Katib** | **Sədr** |